# Moldovanın nümayəndə heyəti Qəbələyə səfər edib

*Fevralın 25-də Moldova xarici işlər nazirinin müavini Lilian Dariinin başçılıq etdiyi nümayəndə heyəti Qəbələ rayonuna səfər edib. Qonaqları rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev qarşılamışdır.*





Onlar əvvəlcə RİH-nin inzibati binasının foyesində ulu öndər Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini əks etdirən fotoşəkillər və sənədlərlə tanış olublar.

Görüş zamanı cənab Səbuhi Abdullayev Qəbələdə sosial-iqtisadi sahədə həyata keçirilən müxtəlif layihələr və bütün sahələrdə nəzərə çarpan uğurlar haqqında danışıb. Həmçinin qonaqlara Qəbələnin tarixi, mədəni həyatı, rayonda həyata keçirilən beynəlxalq tədbirlər, idman yarışları, dövlət başçılarının zirvə toplantıları, eləcə də bütün istiqamətlərdə həyata keçirilən digər tədbirlər barədə ətraflı məlumat verib.

Rayonun kənd təsərrüfatı potensialı, aqrar sektorda qazanılan nailiyyətlər, yeni yaradılmış müasir texnologiyaya malik emal müəssisələri, xüsusilə bağçılıq, taxılçılıq, heyvandarlıq və üzümçülüyün inkişafı istiqamətində əldə olunan qabaqcıl təcrübədən söz açıb.

Moldovalı qonaqlara son illər turizm sahəsində həyata keçirilən infrastruktur layihələri nəticəsində turistlərin artım dinamikası haqqında danışılıb.

Burada hər il baş tutan beynəlxalq musiqi festivallarında dünya şöhrətli musiqiçilərin və musiqi kollektivlərinin çıxış etdikləri, festivala yerli sakinlərlə yanaşı əcnəbilərin də qatıldıqları, Qəbələnin təbiətinin və ekzotikasının onların böyük marağına səbəb olduğu diqqətə çatdırılıb.

Moldova xarici işlər nazirinin müavini onlara göstərilən diqqət və qonaqpərvərliyə görə cənab Səbuhi Abdullayevə təşəkkürünü bildirib. Lilian Darii Azərbaycanın, həmçinin ölkənin regionlarının sürətlə inkişaf etdiyini diqqətə çatdırıb. Xüsusən, Qəbələnin sosial-iqtisadi inkişafı tempinin, füsunkar təbiətinin onu çox məftun etdiyini və bu tanışlığın təəssüratında silinməz xatirələr yaratdığını qeyd edib.

**"Qəbələ".**
**İlkin Vəlizadə.**

*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: İslam həmrəyliyi bizə nə verir?" adlı IV Beynəlxalq multikulturalizm qış məktəbi Qəbələdə öz işinə davam edib.*

# Azərbaycan multikulturalizmi Tufandağ zirvəsində

Qəbələ Mədəniyyət Mərkəzində Azərbaycan Respublikasının millətlərarası, multi-



kulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin baş məsləhətçisi, professor Etibar Nəcəfov və Azərbaycan Dillər Universitetinin kafedra müdiri, professor Gülnar Hüseynzadə "Azərbaycan Respublikasının multikulturalizm siyasəti və ölkənin xarici siyasəti" mövzusunda mühazirə ilə çıxış ediblər.

Tədbir iştirakçıları tədris vaxtından sonra Nic qəsəbəsinə yola düşüblər.

Onlar qəsəbədəki "Cotari" Alban kilsəsini ziyarət ediblər.

Udi icmasının nümayəndələri tələbələrə Azərbaycanda dini ayinlərin icrası üçün yaradılan şəraitdən söhbət açıblar: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət-din münasibətləri demokratik prinsiplərə və beynəlxalq hüquq normalarına uyğun tənzimlənir və hər bir kəsin dini etiqad azadlığı təmin edilir. Azərbaycanda mövcud zəngin mədəni irsin qorunub saxlanılması alqışa layiqdir".

"Cəngi" Udi Folklor Ansamblının təqdim etdiyi konsert proqramı qış məktəbi iştirakçılarında xoş təəssürat yaradıb.

Sonra qış məktəbinin iştirakçıları üçün Tufandağ yayqış turizm istirahət kompleksində kanat gəzintisi təşkil edilib.

"Öz xalqını təqdim et" adlı musiqili axşam çərçivəsində tələbələr əyləncəli təqdimatla çıxış ediblər.

**"Qəbələ".**
**Səhrab Umuyev.**

# "Xocalı-qocalmayan qoca dərd"

***Heydər Əliyev Mərkəzində Xocalı faciəsinə həsr olunmuş "Xocalı-qocalmayan qoca dərd" mövzusunda tədbir keçirilmişdir. Şəhər 3 və 4 nömrəli tam orta məktəblərin bir qrup müəllimlərinin və şagirdlərinin iştirak etdikləri tədbirdə Xocalı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə Heydər Əliyev Mərkəzinin direktoru əvəzi Kəmalə Qasımova açmışdır.***

Tədbirdə çıxış edən Mərkəzin əməkdaşı Aygün Məmmədova erməni silahlı dəstələri tərəfindən xalqımıza qarşı törədilən bu cinayətin ağır nəticələrindən, dinc əhalinin xüsusi qəddarlıqla qətlə yetirilməsindən, əsir götürülən insanların isə dəhşətli işgəncələrə, zülm və təhqirlərə məruz qalmasından danışıb.

Aygün Məmmədova çıxışında qeyd edib ki, Xocalının yer üzündən silinməsində keçmiş Sovet ordusunun 366-cı motoatıcı alayı da yaxından iştirak edib, şəhərin dinc əhalisinə divan tutulmasında görünməmiş vəhşiliklər törədilib.

Heydər Əliyev Mərkəzinin əməkdaşı Mahirə Kərimova çıxış edərək Xocalı soyqırımının XX-əsrdə insanlığa qarşı törədilmiş ən qəddar və ən dəhşətli cinayətlərdən biri olduğunu bildirmişdir. O qeyd etmişdir ki, ölkə başçısı İlham Əliyevin rəhbərliyi altında Heydər Əliyev Fondunun, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik korpuslarının və xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarının səyləri nəticəsində artıq bir çox dünya dövlətlərinin parlamentləri Xocalı faciəsini soyqırımı kimi tanımışdır.

Tədbirdə çıxış edən şəhər 3 nömrəli tam orta məktəbin müəllimi Vəfa Abdullayeva 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalının qəhrəman və fədakar insanları düşmən qarşısında mənən sınmadırqlarını, sonadək vuruşaraq, Vətənə sədaqət nümunəsi, rəşadət və igidlik göstərdiklərini qeyd etdi.

Sonra isə şagirdlərin ifasında Xocalıya həsr edilmiş kiçik səhnəciklər tədbir iştirakçılarına təqdim olunub. Tədbir Xocalı soyqırımından bəhs edən videoçarxın nümayişi ilə başa çatıb.

***«Qəbələ».***

# Rəsm sərgi-müsabiqəsi keçirilmişdir

*Gənclər və idman idarəsinin təşkilatçılığı, Qəbələ Dövlət Rəsm Qalereyası və incəsənət məktəbinin iştirakı ilə 24 fevral 2017-ci il tarixdə Qəbələ Mədəniyyət Mərkəzində uşaq, yeniyetmə və gənclər arasında "Xocalı uşaqların gözü ilə" mövzusunda rəsm sərgi-müsabiqəsi keçirilmişdir. Müsabiqəyə rayonun 60-dək yeniyetmə-gənc rəssamı 100-dək rəsm əsəri ilə qatılmışdır.*



Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Müsabiqəni giriş sözü ilə gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov açmış, Xocalı hadisəsini tariximizin faciəli səhifəsi, eyni zamanda vətənpərvərlik, qəhrəmanlıq rəmzi kimi qiymətləndirmişdir.

Daha sonra Qəbələ Mədəniyyət Mərkəzinin direktoru Malik Ağayev və müsabiqənin münsiflər heyətinin üzvləri çıxış edərək bildirdilər ki, belə rəsm sərgilərinin keçirilməsinin müsbət cəhəti ondadır ki, yaranmış əsərlər uzun illər qalır, daim yaşayır. Bu rəsmlər Azərbaycanın tarixidir. Uşaqların içərisindən gələcəyin böyük rəssamları çıxacaq və onlar bu günü mütləq xatırlayacaqlar. Çıxış edənlər gənc rəssamlara bundan sonrakı fəaliyyətlərində uğurlar arzulamışlar.

Rəsm sərgisinə baxış keçirildikdən sonra qaliblərin mükafatlanma mərasimi olmuşdur. Rəsm müsabiqəsinin yekunlarına əsasən Günel Şahmuradlı I yerə, Zərifə Rəcəbova və Aslan Yəhyazadə II yerə, Həsən Məmmədov, Bilal Məmmədov və Səhrab Həsənov III yerə layiq görülmüşlər. Müsabiqədə Cəmilə Daşdıyeva, Aslan Vəliyev, Nicat Yusifov və Rəşidə Mehdiyeva fəal iştiraklarına görə təltif edilmişlər.

Qaliblər gənclər və idman idarəsinin diplom və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

**Mübariz AĞAYEV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**
**Səhrab Umuyev.**